*ELMİ TƏDQİQAT Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 6, Sayı: 6, s. 9–18
*SCIENTIFIC RESEARCH International Scientific Journal.* June 2026, Volume: 6, Issue: 6, pp. 9–18
DOI: https://doi.org/10.36719/2789-6919/60/9-18

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES

# Şah II Abbas dövründə (1642-1666) Səfəvi–Osmanlı əlaqələrinin siyasi və diplomatik aspektləri

**Solmaz Əzimova**

***Xülasə.*** *Məqalədə Şah II Abbasın hakimiyyəti dövründə (1642–1666) Səfəvi–Osmanlı münasibətlərinin siyasi və diplomatik aspektləri araşdırılmışdır. Tədqiqatın əsas məqsədi XVII əsrin ortalarında iki imperiya arasında formalaşmış münasibətlərin xarakterini müəyyənləşdirmək, diplomatik əlaqələrin inkişaf dinamikasını və regional siyasətə təsirini təhlil etməkdir. Araşdırmanın əsas mənbəsini Məhəmməd Tahir Vəhidin "Abbasnamə" əsəri təşkil edir. Bununla yanaşı, dövrə aid digər tarixi mənbələr və müasir elmi ədəbiyyat da müqayisəli şəkildə tədqiqata cəlb edilmişdir. Məqalədə 1639-cu il Qəsri-Şirin müqaviləsindən sonra Səfəvi və Osmanlı dövlətləri arasında yaranmış siyasi sabitlik mühiti, qarşılıqlı elçilik missiyalarının fəaliyyəti, diplomatik yazışmalar, sərhəd məsələləri və regional hadisələr təhlil olunur. Xüsusi diqqət Şah II Abbasın xarici siyasət strategiyasına, Osmanlı dövləti ilə münasibətlərdə nümayiş etdirdiyi praqmatik mövqeyə və dövlətlərarası sülhün qorunmasına yönəlmiş diplomatik fəaliyyətinə yetirilmişdir. Bəsrə hadisələri, sərhəd bölgələrində baş verən lokal toqquşmalar və Başıaçıq məsələsi nümunəsində tərəflərin münaqişələrin genişmiqyaslı müharibəyə çevrilməsinin qarşısını almaq üçün həyata keçirdikləri tədbirlər araşdırılmışdır. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Şah II Abbas dövründə hər iki dövlət yeni hərbi qarşıdurmalardan yayınmağa, siyasi sabitliyi qorumağa və iqtisadi-ticarət əlaqələrinin inkişafına üstünlük vermişdir. Qarşılıqlı diplomatik nümayəndəliklərin fəaliyyəti, elçilərin yüksək səviyyədə qəbulu və dövlətlərarası müqavilələrin şərtlərinə riayət olunması regionda sülhün qorunmasında mühüm rol oynamışdır. Nəticə etibarilə, XVII əsrin ortalarında Səfəvi–Osmanlı münasibətləri qarşıdurmadan daha çox diplomatik əməkdaşlıq, siyasi praqmatizm və regional sabitliyin təmin edilməsi istiqamətində inkişaf etmişdir.*

***Açar sözlər:*** *Şah II Abbas, Səfəvi dövləti, Osmanlı imperiyası, diplomatik münasibətlər, Qəsri-Şirin müqaviləsi, elçilik missiyaları*

---

Bakı Dövlət Universiteti, tarix üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt: solmazazimova2021@gmail.com
Daxil oldu: 5 Mart 2026; Qəbul edildi: 10 İyun 2026; Onlayn dərc edildi: 30 İyun 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

*ELMİ TƏDQİQAT* Beynəlxalq Elmi Jurnal. 6(6), 2026
*SCIENTIFIC RESEARCH* International Scientific Journal. 6(6), 2026

# Political and Diplomatic Aspects of Safavid-Ottoman Relations during the Reign of Shah Abbas II (1642-1666)

**Solmaz Azimova**

***Abstract.*** *This article examines the political and diplomatic aspects of Safavid-Ottoman relations during the reign of Shah Abbas II (1642–1666). The main objective of the study is to analyze the nature of relations between the two empires in the mid-seventeenth century, to explore the dynamics of diplomatic interaction, and to assess their impact on regional politics. The research is primarily based on Mohammad Tahir Vahid's Abbasnama, one of the most important contemporary chronicles of the period. In addition, other historical sources and relevant scholarly literature have been used for comparative analysis. The article investigates the political environment that emerged after the Treaty of Qasr-e Shirin (1639), the development of diplomatic relations, the activities of embassies, diplomatic correspondence, border issues, and major regional events. Particular attention is paid to Shah Abbas II's foreign policy strategy, his pragmatic approach toward the Ottoman Empire, and his efforts to preserve interstate peace through diplomatic means. The study also examines the Basra events, local border conflicts, and the Bashi-Achiq issue as examples of how both states sought to prevent regional tensions from escalating into large-scale military confrontation. The findings demonstrate that both the Safavid and Ottoman states prioritized political stability, economic and commercial interests, and the maintenance of peaceful relations over military conflict. The exchange of diplomatic missions, the ceremonial reception of ambassadors, and adherence to the provisions of the Treaty of Qasr-e Shirin played a significant role in preserving regional stability. The article concludes that Safavid-Ottoman relations during the reign of Shah Abbas II were characterized primarily by diplomatic cooperation, political pragmatism, and a mutual commitment to maintaining peace rather than by military confrontation.*

***Keywords:*** *Shah Abbas II, Safavid State, Ottoman Empire, diplomatic relations, Treaty of Qasr-e Shirin, diplomatic missions*

---

Baku State University, PhD in History, Baku, Azerbaijan
E-mail: solmazazimova2021@gmail.com
Received: 5 March 2026; Accepted: 10 June 2026; Published online: 30 June 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

XVII əsr Səfəvi–Osmanlı münasibətləri Yaxın Şərqin siyasi tarixində mühüm yer tutur. 1639-cu ildə bağlanmış Qəsri-Şirin müqaviləsindən sonra iki dövlət arasında uzunmüddətli sülh mərhələsi başlamış və bu sülh Şah II Abbasın (1642–1666) hakimiyyəti dövründə də əsasən qorunub saxlanılmışdır. Həmin dövrdə tərəflər arasında diplomatik əlaqələrin inkişafı, qarşılıqlı elçiliklərin göndərilməsi və sərhəd təhlükəsizliyinin təmin olunması regional sabitliyin mühüm amillərindən biri olmuşdur. Məqalənin məqsədi Şah II Abbas dövründə Səfəvi–Osmanlı münasibətlərinin siyasi və diplomatik aspektlərini araşdırmaq, bu münasibətlərin formalaşmasına təsir göstərən əsas amilləri müəyyənləşdirməkdir. Tədqiqatın əsas mənbəsini Məhəmməd Tahir Vəhidin "Abbasnamə" əsəri təşkil edir. Araşdırmada tarixi-müqayisəli, təhlili və mənbəşünaslıq metodlarından istifadə edilmişdir.

## Metodlar

Tədqiqatın əsas mənbəsini Məhəmməd Tahir Vəhidin XVII əsrə aid “Abbasnamə” əsəri təşkil edir. Bununla yanaşı, dövrə aid digər salnamələr, Osmanlı və Səfəvi tarixçilərinin əsərləri, həmçinin, müasir Azərbaycan, Türkiyə və Qərb tarixşünaslığında mövzu ilə bağlı aparılmış tədqiqatlar araşdırmaya cəlb edilmişdir. Tədqiqat zamanı tarixi-müqayisəli metoddan istifadə edilməklə Səfəvi–Osmanlı münasibətlərinin müxtəlif mərhələləri müqayisəli şəkildə təhlil edilmişdir. Mənbəşünaslıq metodu vasitəsilə ilkin mənbələrin məlumatları qiymətləndirilmiş, onların etibarlılığı və informativ imkanları müəyyənləşdirilmişdir. Eyni zamanda, analitik metodun tətbiqi nəticəsində diplomatik nümayəndəliklərin fəaliyyəti, sərhəd problemləri, regional siyasi hadisələr və Şah II Abbasın xarici siyasət strategiyası sistemli şəkildə araşdırılmışdır.

Araşdırmada, həmçinin, tarixi hadisələrin səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi məqsədilə interpretativ yanaşmadan istifadə olunmuşdur. Bu yanaşma XVII əsrin ortalarında Səfəvi–Osmanlı münasibətlərinin hərbi qarşıdurmadan diplomatik əməkdaşlığa keçid prosesinin mahiyyətini daha dolğun şəkildə izah etməyə imkan vermişdir.

## Nəticələr

*Məsələnin tarixşünaslığı və mənbə bazası.* XVII əsrdə Səfəvi–Osmanlı münasibətləri həm Azərbaycan, həm Türkiyə, həm də Qərb tarixşünaslığında geniş şəkildə araşdırılmış mövzulardan biridir. Lakin tədqiqatların əksəriyyəti hərbi-siyasi hadisələrə və dövlətlərarası müharibələrə həsr edilmiş, Şah II Abbas dövrünün diplomatik münasibətləri isə nisbətən az öyrənilmişdir. Türkiyə tarixşünaslığında Osmanlı–Səfəvi münasibətlərinin öyrənilməsində İsmail Hakkı Uzunçarşılının əsərləri mühüm yer tutur. Müəllif Osmanlı dövlətinin xarici siyasətini, eləcə də Səfəvi dövləti ilə münasibətlərini əsasən Osmanlı arxiv materialları və salnamələr əsasında araşdırmışdır (Uzunçarşılı, 1988). Bununla yanaşı, Faruk Sümer və Bekir Kütükoğlu kimi tədqiqatçılar da XVI–XVII əsrlərdə Osmanlı–Səfəvi münasibətlərinin siyasi aspektlərini tədqiq etmişlər (Sümer, 1993; Kütükoğlu, 1992). Qərb tarixşünaslığında Roger Savory, Rudi Matthee, Andrew Newman və Colin Mitchell kimi alimlərin araşdırmaları Səfəvi dövlətinin siyasi sistemi, xarici siyasəti və diplomatik münasibətlərinin öyrənilməsində xüsusi əhəmiyyətə malikdir (Savory,1980; Matthee, 2012; Newman, 2006; Mitchell, 2009). Xüsusilə Rudi Matthee Səfəvi dövlətinin beynəlxalq münasibətlər sistemində tutduğu mövqeyi, diplomatik nümayəndəliklərin fəaliyyətini və iqtisadi amillərin xarici siyasətə təsirini təhlil etmişdir.

Azərbaycan tarixşünaslığında isə Oqtay Əfəndiyev, Yaqub Mahmudov, Şahin Fərzəliyev və digər tədqiqatçılar Səfəvi dövlətinin siyasi tarixi, Osmanlı ilə münasibətləri və regionun beynəlxalq vəziyyəti ilə bağlı mühüm araşdırmalar aparmışlar (Əfəndiyev, 2007; Mahmudov, 2006). Bununla belə, Şah II Abbas dövründə diplomatik münasibətlərin konkret hadisələr və mənbələr əsasında sistemli şəkildə araşdırılması hələ də aktual olaraq qalır.

Məhəmməd Tahir Vəhidin “Abbasnamə” əsəri Şah II Abbas dövrünün siyasi hadisələri və diplomatik münasibətlərinin öyrənilməsi üçün mühüm ilkin mənbələrdən biridir. Bu əsər əsasında aparılan tədqiqatlar göstərir ki, XVII əsrin ortalarında Osmanlı–Səfəvi münasibətlərinin əsas istiqaməti hərbi qarşıdurmadan daha çox siyasi sabitliyin qorunması və diplomatik əməkdaşlığın inkişaf etdirilməsi olmuşdur. Bu baxımdan təqdim olunan məqalədə “Abbasnamə” materialları əsasında Şah II Abbas dövründə Səfəvi–Osmanlı münasibətlərinin siyasi və diplomatik aspektləri təhlil edilir, diplomatik nümayəndəliklərin fəaliyyəti, sərhəd problemləri və tərəflərin qarşılıqlı siyasi davranışları araşdırılır.

*Diplomatik nümayəndə heyətləri və elçilik münasibətləri.* 1642-ci ildə atası Şah I Səfinin ölümündən sonra Səfəvi taxtına oturan Şah II Abbasın taxta oturması ilə Səfəvi-Osmanlı müharibəsinin yeni

mərhələsi başlayır. Düzdür, 1639-cu ildə bağlanmış Qəsri-Şirin müqaviləsinə əsasən hərbi əməliyyatlara son qoyulmuşdu. Yeni hökmdarın gəlişi Osmanlı hökumətində yeni tələblərin irəli sürülməsi üçün fürsət yaratmışdı. İ.H.Uzunçarşılının qeydlərinə görə, II Abbasın tacqoyma xəbəri ilə xüsusi nümayəndə heyəti İstanbula göndərilmişdi. Nümayəndə heyətinə Maqsud xan rəhbərlik edirdi. Elçilik heyəti İstanbul sarayına müxtəlif qiymətli hədiyyələr ilə təşrif buyurmuşdular. Danışıqlar nəticəsində Zohab müqaviləsinin şərtlərinə yenidən baxılmış, Van yaxınlığındakı Millət qalasının dağıdılması icazəsi alınmışdı. Osmanlı hökmdarı Sultan İbrahim (1640-1648) Şah I Səfinin vəfatından sonra Səfəvi taxtına çıxmış Şah II Abbasa başsağlığı vermək və onun hakimiyyətə gəlişini rəsmən təbrik etmək məqsədilə Yusif ağanın rəhbərliyi altında xüsusi elçilik heyəti göndərmişdi. Osmanlı elçisinin Şah II Abbas tərəfindən Qəzvin yaxınlığındakı Səadətabad bağındakı sarayda böyük ehtiramla qəbul olunması və onun şərəfinə rəsmi ziyafət təşkil edilməsi (Savory, 1980, s. 90-114) Səfəvi sarayının Osmanlı dövləti ilə münasibətlərə xüsusi önəm verdiyini göstərirdi. Osmanlı elçisinin yüksək səviyyədə qəbul olunması təkcə diplomatik nəzakət nümunəsi deyildi. Bu addım Səfəvi sarayının Qəsri-Şirin müqaviləsindən sonra formalaşmış siyasi sabitliyi qorumaq niyyətini nümayiş etdirirdi. Elçilik mərasimləri iki dövlət arasında qarşılıqlı legitimliyin tanınmasının və diplomatik sabitliyin qorunmasında iqtisadi amillər mühüm rol oynayırdı. Azərbaycan və İraq üzərindən keçən beynəlxalq ticarət yolları hər iki dövlət üçün mühüm gəlir mənbəyi olduğundan, tərəflər müharibədən daha çox iqtisadi əməkdaşlığa üstünlük verməyə çalışırdılar.

1642-ci ildə Qəzvində aparılmış danışıqlara toxunan Molla Kamal qeyd edir ki, Səfəvi dövləti Osmanlı imperiyasına qarşı hərbi əməliyyatlara başlamayacağına dair rəsmi təminat vermişdi. Müəllifin fikrincə, tərəflər arasında təhlükəsizliyin və əmin-amanlığın qorunması, xüsusilə tacirlərin sərbəst hərəkətinin təmin olunması həm Səfəvi, həm də Osmanlı dövlətinin iqtisadi və siyasi maraqlarına cavab verirdi (Savory, 1980, s. 110-114). Bu məlumatdan aydın olur ki, XVII əsrin ortalarında hər iki imperiya uzunmüddətli müharibələrin doğurduğu iqtisadi və sosial çətinlikləri nəzərə alaraq, sülh siyasətinə üstünlük verməyə çalışırdı. Xüsusilə beynəlxalq ticarət yollarının təhlükəsizliyinin təmin edilməsi və sərhəd bölgələrində sabitliyin qorunması iki dövlətin ortaq maraqlarından biri idi. Çünki Azərbaycan və İraq istiqamətindən keçən mühüm karvan yolları həm Osmanlı, həm də Səfəvi iqtisadiyyatında mühüm rol oynayırdı. Bu səbəbdən tərəflər arasında diplomatik münasibətlərin davam etdirilməsi yalnız siyasi deyil, həm də iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edirdi. Məhz buna görə də Şah II Abbas dövründə Səfəvi sarayı Osmanlı dövləti ilə münasibətlərdə ehtiyatlı və praqmatik siyasət yürütməyə üstünlük vermiş, qarşıdurmadan daha çox sabitliyin qorunmasına çalışmışdır. 1648-ci ildə İsfahan saray tarixçisi Məhəmməd Tahir Vəhid iki türk hökmdarı Qızılbaş hökmdarı Şah II Abbas və Osmanlı hökmdarı Sultan İbrahimin Bəstamda baş tutmuş danışıqlarda iştirak etmiş və bu barədə geniş məlumat vermişdi.

*Səfəvi–Osmanlı münasibətlərində sülh və diplomatiya amili. Sərhəd problemləri və yerli münaqişələr.* Şah I Səfinin vəfatından sonra Səfəvi taxtına Şah II Abbasın çıxması Osmanlı–Səfəvi münasibətlərində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Sultan İbrahim baş verən hakimiyyət dəyişikliyi münasibətilə həm başsağlığı vermək, həm də yeni hökmdarın hakimiyyətini rəsmən tanıdığını nümayiş etdirmək məqsədilə Yusif ağanın rəhbərliyi altında xüsusi elçilik nümayəndə heyətini Səfəvi sarayına göndərmişdi. Osmanlı elçisinin özü ilə gətirdiyi məktubda iki dövlət arasında sülh və dostluq münasibətlərinin davam etdirilməsinin vacibliyi vurğulanır, Qəsri-Şirin müqaviləsindən sonra yaranmış siyasi sabitliyin qorunmasının hər iki tərəfin maraqlarına uyğun olduğu qeyd edilirdi. Bu addım Osmanlı sarayının Səfəvi dövlətində baş verən siyasi dəyişiklikləri diqqətlə izlədiyini və regionda yeni hərbi qarşıdurmanın yaranmasında maraqlı olmadığını göstərirdi.

Şah II Abbas Osmanlı nümayəndəsini Qəzvin yaxınlığında yerləşən Səadətabad sarayında yüksək səviyyədə qəbul etmişdi. Elçinin şərəfinə təşkil olunan rəsmi qəbul və ziyafət mərasimləri Səfəvi sarayının diplomatik münasibətlərə verdiyi əhəmiyyəti nümayiş etdirirdi. Mənbələrin verdiyi məlumata görə, Osmanlı elçisinə göstərilən ehtiram təkcə saray nəzakətinin ifadəsi deyildi; bu, həm

də iki dövlət arasında qarşılıqlı etimad mühitinin mövcudluğunu əks etdirirdi (Savory, 1980, s. 80-82). Həmin dövrdə elçilərin təmtəraqlı şəkildə qarşılanması beynəlxalq münasibətlər sistemində siyasi mesaj xarakteri daşıyırdı və Səfəvi hökmdarının bu davranışı Osmanlı ilə münasibətlərin sabit saxlanılmasına yönəlmiş siyasətin tərkib hissəsi idi.

XVII əsrin ortalarında Osmanlı və Səfəvi imperiyaları arasında münasibətlərin nisbətən sakit xarakter alması ilk növbədə hər iki dövlətin daxili və xarici siyasi vəziyyəti ilə bağlı idi. Osmanlı dövləti Avropa istiqamətində və Aralıq dənizi hövzəsində baş verən hadisələrə diqqət yetirməyə çalışdığı halda, Səfəvi dövləti isə şərq sərhədlərində Böyük Moğol dövləti ilə münasibətləri və xüsusilə Qəndəhar məsələsini diqqət mərkəzində saxlayırdı.

Eyni zamanda, iki dövlət arasında iqtisadi-ticarət əlaqələrinin inkişafı da sülh siyasətinin mühüm səbəblərindən biri idi. Azərbaycan və İraq üzərindən keçən beynəlxalq karvan yolları Şərq ilə Qərb arasında mühüm ticarət arteriyalarından hesab olunurdu. Müharibələrin yenidən başlanması bu yolların təhlükəsizliyini poza, ticarət dövriyyəsinə ciddi zərbə vura bilərdi. Bu baxımdan həm Osmanlı, həm də Səfəvi hakim dairələri sərhəd bölgələrində sabitliyin qorunmasına xüsusi diqqət yetirirdilər. Tacirlərin sərbəst hərəkətinə şərait yaradılması, diplomatik nümayəndə heyətlərinin təhlükəsiz şəkildə fəaliyyət göstərməsi və qarşılıqlı elçilik münasibətlərinin davam etdirilməsi tərəflərin sülh siyasətinə sadiqliyinin əsas göstəricilərindən biri idi. Gördüyümüz kimi, Şah II Abbasın hakimiyyətinin ilk illərində Osmanlı–Səfəvi münasibətləri qarşıdurmadan daha çox diplomatik yaxınlaşma və siyasi sabitliyin qorunması xətti üzrə inkişaf etmişdir.

XVII əsrin ortalarında Səfəvi və Osmanlı dövlətləri arasında rəsmi səviyyədə sülh münasibətlərinin davam etdirilməsinə xüsusi diqqət yetirilsə də, sərhəd bölgələrində müəyyən lokal xarakterli qarşıdurmaların baş verməsi müşahidə olunurdu. Bu hadisələrin əsas səbəblərindən biri Osmanlı hakim dairələri ilə əlaqəli bəzi yerli qüvvələrin sərhəd siyasətinə müdaxiləsi idi. Həmin dövrdə Osmanlı dövlətinin kürd əsilli məmurlarından olan İbşir paşanın təşviqi ilə Pinyaniş tayfasına mənsub kürdlər bir neçə dəfə Səfəvi sərhədlərini keçərək yaşayış məntəqələrinə hücumlar təşkil etmiş, əhalinin mal-mülkünü talan etmiş və çoxsaylı insan tələfatına səbəb olmuşdular. Basqınlar zamanı ağır silahlardan istifadə edilməməsinə baxmayaraq, bu hərəkətlər 1639-cu il Qəsri-Şirin müqaviləsinin müddəalarına zidd idi.

Mənbələrin məlumatına görə, İbşir paşanın əsas məqsədi sərhəd əyalətlərinin Səfəvi hakimlərini hərbi qarşıdurmaya cəlb etməklə iki dövlət arasında mövcud olan siyasi sabitliyi sarsıtmaq idi. Onun fəaliyyəti müəyyən mənada nəticə vermiş, sərhəd bölgəsində gərginlik artmışdı. Davamlı hücumlar və qarət hadisələri qarşısında Urmiya hakimi hərbi tədbirlərə əl ataraq təxminən 20 min nəfərlik silahlı qüvvə ilə Osmanlı ərazisinə daxil olmuş, Pinyaniş kürdlərinə qarşı cəza yürüşü təşkil etmişdi. Nəticədə, həmin tayfanın böyük miqdarda mal-qarası, o cümlədən 40 min baş qoyunu qənimət kimi ələ keçirilmişdi.

Bu hadisələr Osmanlı hökumətinin ciddi narazılığına səbəb olmuş və məsələni araşdırmaq məqsədilə 1654-cü ildə Evliya Çələbi diplomatik missiya ilə Təbrizə göndərilmişdi. Onun apardığı danışıqlar nəticəsində tərəflər arasında yaranmış gərginliyin aradan qaldırılması və münasibətlərin əvvəlki məcraya qaytarılması mümkün olmuşdur (Uzunçarşılı, 1988, s. 42–43). Qeyd edilən faktlar göstərir ki, dövlətlərarası səviyyədə sülhün qorunması sərhəd zonalarında tam təhlükəsizliyin təmin olunması anlamına gəlmirdi. Əksinə, yerli tayfaların fəaliyyəti və regional maraqlar zaman-zaman ikitərəfli münasibətlərdə gərginlik yaradırdı. Bununla belə, hər iki dövlətin mərkəzi hakimiyyəti bu cür hadisələrin genişmiqyaslı hərbi qarşıdurmaya çevrilməsinin qarşısını almaq üçün diplomatik vasitələrdən istifadə etməyə üstünlük verirdi.

XVII əsrin 50-ci illərində Səfəvi-Osmanlı münasibətlərində sabitliyin qorunub saxlanıldığını təsdiq edən mühüm göstəricilərdən biri də Osmanlı dövlətinin Qəndəhar məsələsində tutduğu mövqe idi. Belə ki, 1656-cı ildə Böyük Moğol imperiyasının nümayəndəsi Qayım bəy Osmanlı elçisi Zülfiqar ağa ilə birlikdə İstanbula gələrək Qəndəharın geri qaytarılması uğrunda Səfəvilərə qarşı hərbi yardım göstərilməsini xahiş etmişdi. Lakin Osmanlı sarayı bu təklifi qəbul etməmiş və beləliklə, Səfəvi dövləti ilə mövcud sülh siyasətini davam etdirmək niyyətini nümayiş etdirmişdi (Uzunçarşılı, 1988, s. 266–267). Mövcud faktlar göstərir ki, II Şah Abbasın hakimiyyəti illərində əvvəlki dövrdə müəyyən qədər zəifləyən Səfəvi dövlətinin siyasi nüfuzu, hərbi potensialı və iqtisadi imkanları əhəmiyyətli dərəcədə bərpa olunmuşdu. Belə bir şəraitdə Səfəvi dövləti ilə münasibətlərin yenidən qarşıdurma mərhələsinə keçməsi Osmanlı imperiyasının strateji maraqlarına uyğun gəlmirdi. Eyni zamanda, II Şah Abbas da iki dövlət arasında formalaşmış siyasi sabitliyi qorumağa çalışaraq Osmanlı dövlətinin daxili məsələlərinə qarışmamaq siyasəti yürüdürdü. Bu siyasətin bariz nümunələrindən biri Osmanlı hakimiyyəti altında olan ərəb vilayətlərində baş verən hakimiyyət çəkişmələri zamanı özünü göstərmişdir.

*II Şah Abbasın xarici siyasəti və "Abbasnamə"nin tarixi dəyəri.* M.T. Vahidin verdiyi məlumata görə, II Şah Abbasın Qəzvində olduğu dövrdə Bəsrə əyalətində ciddi hakimiyyət böhranı yaranmışdı. Vilayətin hakimi Əli paşanın oğlu Hüseyn paşa ilə onun əmiləri Əhməd bəy və Fəthi bəy arasında hakimiyyət uğrunda mübarizə başlamışdı. Münaqişə nəticəsində Əhməd bəy və Fəthi bəy qardaşlarının oğlunu vəzifədən uzaqlaşdırmaq məqsədilə Osmanlı hökumətinin dəstəyini qazanmaq üçün İstanbula yollanmışdılar. Bu təşəbbüsdən xəbər tutan Hüseyn paşa vəziyyəti yumşaltmağa çalışaraq onlara məktub göndərmiş və geri dönəcəkləri təqdirdə idarəçilikdə iştirak hüququ verəcəyini bildirmişdi. Lakin Bəsrəyə qayıdan qardaşlar müəyyən dairələrin təsiri altında Hüseyn paşanın onları aradan götürmək niyyətində olduğuna inanmış və təhlükəsizlik məqsədilə Bağdada sığınmışdılar (Bayramlı və Şabiyev, 2014, s. 36–41; Əbülqazi Bahadır xan, 2002, s. 65).

Baş verən hadisələri öz siyasi maraqları baxımından əlverişli hesab edən Bağdad valisi Bəsrə üzərində nəzarəti ələ keçirmək qərarına gəlmişdi. Bu məqsədlə o, Əhməd bəy və Fəthi bəydən istifadə edərək hərbi hazırlıqlara başlamış və artilleriya ilə təchiz olunmuş qoşunla Bəsrə istiqamətində hərəkət etmişdi. Vəziyyətin təhlükəli xarakter aldığını görən Hüseyn paşa çıxış yolunu Səfəvi dövlətindən yardım istəməkdə görmüş və II Şah Abbasa müraciət edərək onun hakimiyyətini tanımağa hazır olduğunu bildirmişdi. Bununla belə, II Şah Abbas iki dövlət arasında qüvvədə olan 1639-cu il Qəsri-Şirin müqaviləsinin şərtlərinə sadiq qalaraq bu müraciətə müsbət münasibət göstərməmişdi.

Səfəvi sarayının neytral mövqeyi nəticəsində Bağdad valisi ciddi müqavimətlə qarşılaşmadan Bəsrəni öz nəzarəti altına ala bilmiş, Hüseyn paşa isə Kuhgiluyə bölgəsinə çəkilməyə məcbur olmuşdu. O, burada da Səfəvi hökmdarından yardım almağa cəhd göstərsə də, əvvəlki müraciəti kimi bu istəyi də rədd edilmişdi. Sonrakı hadisələr isə Bağdad valisinin mövqeyini zəiflətmişdi. Belə ki, o, hakimiyyət uğrunda mübarizədə istifadə etdiyi Əhməd bəy və Fəthi bəyi aradan götürsə də, yerli əhalinin narazılığı və mümkün üsyan təhlükəsi səbəbindən Bəsrədə möhkəmlənə bilməmişdi. Nəticədə Bağdada geri çəkilməyə məcbur qalmış, bundan sonra isə Bəsrədə hakimiyyət yenidən Hüseyn paşanın əlinə keçmişdi (Bayramlı və Şabiyev, 2014, s. 36–41; Əbülqazi Bahadır xan, 2002, s. 69–78).

Bu hadisələr II Şah Abbasın Osmanlı imperiyasının daxili siyasi proseslərinə müdaxilə etməmək prinsipinə ciddi şəkildə riayət etdiyini və Səfəvi-Osmanlı münasibətlərində mövcud olan sülh mühitinin qorunmasına üstünlük verdiyini nümayiş etdirir. II Şah Abbasın Hüseyn paşanın yardım tələbinə müsbət münasibət göstərməməsi onun xarici siyasət kursunun əsas xüsusiyyətlərindən biri olan siyasi realizmi və ehtiyatlı diplomatiyanı əks etdirirdi. Səfəvi hökmdarı qısamüddətli geosiyasi üstünlüklər əldə etmək məqsədilə Osmanlı imperiyasının daxili problemlərindən yararlanmağa çalışmaq əvəzinə, iki dövlət arasında mövcud olan sabit münasibətlərin qorunmasına üstünlük verirdi.

Bu baxımdan Bəsrə böhranı zamanı nümayiş etdirilən mövqe Səfəvi sarayının regional siyasətdə qarşıdurmadan daha çox sabitlik və təhlükəsizlik amillərini ön plana çıxardığını göstərir.

Təxminən 1654-cü ildə baş vermiş Bəsrə hadisələri həm də onu sübut edir ki, XVII əsrin ortalarında Səfəvi və Osmanlı dövlətlərinin siyasi rəhbərləri uzunmüddətli müharibələrin ağır nəticələrini nəzərə alaraq yeni hərbi qarşıdurmaların başlanmasında maraqlı deyildilər. Əksinə, tərəflər arasında sülhün möhkəmləndirilməsi, ticarət yollarının təhlükəsizliyinin təmin edilməsi və iqtisadi əlaqələrin inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdi. Bu siyasətin davamı kimi 1656-cı ildə (h. 1066) II Şah Abbas öz nümayəndəsi Kəlbəli sultan Silsüpürü Osmanlı sarayına göndərmişdi. Osmanlı hökmdarı da qarşılıqlı diplomatik münasibətlərin inkişaf etdirilməsi məqsədilə İsmayıl ağanı Səfəvi elçisi ilə birlikdə İsfahana yola salmışdı (Bayramlı, 2006, s. 22–26; Bayramlı, 2014). Qarşılıqlı elçi mübadiləsi iki dövlət arasında siyasi etimadın qorunduğunu və diplomatik kanalların fəal şəkildə fəaliyyət göstərdiyini nümayiş etdirirdi.

M.T. Vahidin məlumatına əsasən, Osmanlı elçisi İsmayıl ağa İsfahana çatdıqdan sonra Səfəvi sarayı tərəfindən yüksək səviyyədə qəbul edilmişdi. Onun iqaməti dövründə bütün yaşayış və gündəlik xərcləri dövlət xəzinəsi hesabına qarşılanmış, elçinin şərəfinə bir sıra rəsmi qəbul və ziyafətlər təşkil olunmuşdu. Həmin məclislərdə dövlətin nüfuzlu hərbi və mülki məmurları, eləcə də saray əyanları iştirak etmişdilər. Bundan əlavə, İsmayıl ağaya qiymətli hədiyyələr təqdim olunmuş, onun rahatlığı və təhlükəsizliyinin təmin olunması məqsədilə yüksək vəzifəli saray məmurları – qorçubaşı və qullarağası xüsusi olaraq məsul təyin edilmişdilər (Bayramlı və Şabiyev, 2014, s. 36–41; Bayramlı və Əzizli, 2000; Əbülqazi Bahadır xan, 2002, s. 65).

İsmayıl ağanın İsfahanda olduğu müddətdə səhhətində yaranan problemlər də Səfəvi sarayının diqqət mərkəzində olmuşdu. O, saray həkimi Məhəmməd Şərif tərəfindən müalicə edilmiş və sağaldıqdan sonra yenidən diplomatik fəaliyyətini davam etdirmişdi. II Şah Abbas Osmanlı nümayəndəsini dəyərli hədiyyələrlə taltif etdikdən sonra onun vətəninə qayıtmasına icazə vermişdi. Lakin geri dönüş zamanı Bağdadda yenidən xəstələnən İsmayıl ağa burada vəfat etmişdi (Bayramlı və Şabiyev, 2014, s. 36–41; Əbülqazi Bahadır xan, 2002, s. 65).

Qarşılıqlı elçilik missiyalarının təşkili, nümayəndələrin yüksək səviyyədə qəbul edilməsi və diplomatik etiket qaydalarına ciddi riayət olunması XVII əsrin ortalarında Səfəvi-Osmanlı münasibətlərində əməkdaşlıq meyillərinin üstünlük təşkil etdiyini və hər iki dövlətin siyasi sabitliyin qorunmasına xüsusi əhəmiyyət verdiyini göstərir. Məlum olduğu kimi, 1555-ci il Amasiya müqaviləsinə əsasən Qərbi Gürcüstan ərazisində yerləşən knyazlıqlar, o cümlədən Başıaçıq bölgəsi Osmanlı dövlətinin nüfuz dairəsinə daxil edilmişdi. Bununla belə, Cənubi Qafqazda mürəkkəb siyasi vəziyyətin hökm sürdüyü XVII əsrdə gürcü hakimləri dəyişən geosiyasi şəraitə uyğun olaraq çevik siyasət yürüdür, bəzən Səfəvi, bəzən isə Osmanlı yönümlü mövqe sərgiləyərək öz siyasi müstəqilliklərini möhkəmləndirməyə çalışırdılar. Eyni zamanda, ayrı-ayrı gürcü knyazlıqları arasında hökm sürən rəqabət və hakimiyyət uğrunda mübarizə onların ərazi və nüfuz dairələrini genişləndirmək istəklərindən irəli gəlirdi. 1658-ci ildə Kartli-Kaxetiya hakimi Rüstəm xanın vəfatından sonra onun övladlığa götürdüyü Şahnavaz xan hakimiyyətə gəlmişdi. O, Səfəvi dövlətinə bağlılığını nümayiş etdirməsinə baxmayaraq, bir neçə il sonra regionun siyasi balansını dəyişdirən addım atmışdı. Belə ki, 1661-ci ildə Şahnavaz xan Osmanlı hakimiyyəti altında olan Qərbi Gürcüstan istiqamətində hərbi yürüş təşkil edərək Başıaçıq bölgəsini ələ keçirmiş və öz oğlu Arçili həmin əraziyə hakim təyin etmişdi (Savory, 1980, s. 80–82). M.T. Vahidin məlumatına əsasən, hicri 1073-cü ildə (1662) İrəvan bəylərbəyi Nəcəfqulu xan bu hadisə ilə bağlı II Şah Abbasa məlumat göndərmişdi. Məktubda Şahnavaz xanın Osmanlı nəzarətində olan Başıaçıq bölgəsini işğal etməsi və burada öz hakimiyyətini bərqərar etməsi barədə ətraflı məlumat verilirdi (Bayramlı və Şabiyev, 2014, s. 36–41; Bakıxanov, 2001; ). Şübhəsiz ki, bu addım Səfəvi və Osmanlı dövlətləri arasında 1639-cu

ildə imzalanmış Qəsri-Şirin müqaviləsinin müddəalarına zidd idi və iki dövlət arasında müəyyən narahatlıq yaratmaq potensialına malik idi.

Baş verən hadisədən xəbər tutan II Şah Abbas dərhal məsələ ilə bağlı tədbirlər görmüşdü. Onun göstərişi ilə hazırlanan fərmanda Osmanlı dövlətinin tabeliyində olan ərazilərdən Səfəvi qüvvələrinin çıxarılması və bölgədə idarəçiliyin əvvəlki statusuna qaytarılması tələb edilirdi. Fərmanda həmçinin, iki dövlət arasında uzun illərdir davam edən dostluq münasibətlərinin və qarşılıqlı sülh siyasətinin qorunmasının vacibliyi xüsusi vurğulanırdı (Savory, 1980, s. 80–82). Şahnavaz xan mərkəzi hakimiyyətin iradəsinə tabe olaraq verilən əmri dərhal yerinə yetirmiş, Başıaçıqda yerləşdirilmiş qoşunlarını geri çağırmışdı. Bununla yanaşı, oğlu Arçil həmin bölgədən uzaqlaşdırılmış və sonradan Kaxetiya üzərində hakimiyyətə gətirilmişdi (Sümer, 1992, s. 550–551). Sonrakı mərhələdə Şahnavaz xan Əmilaxur Elizbar bəylə birlikdə həmin dövrdə Mazandaranda olan II Şah Abbasın hüzuruna gəlmişdi. Onun qəbul və yerləşdirilməsi üçün saray xidmətçilərindən Əmir Həmzə bəy mehmandar təyin olunmuşdu (Newman, 2006, s. 5–8).

Hadisələrin yekunu göstərir ki, II Şah Abbas Şahnavaz xanın hərəkətlərini dövlətlərarası münasibətlər baxımından məqsədəuyğun hesab etməsə də, onun uzun illər ərzində Səfəvi dövlətinə göstərdiyi xidmətləri nəzərə alaraq sərt cəza tədbirlərindən imtina etmişdi. Bu yanaşma şahın həm siyasi praqmatizmini, həm də imperiyanın sərhəd bölgələrində sabitliyin qorunmasına verdiyi əhəmiyyəti əks etdirirdi. M.T. Vahidin "Abbasnamə" əsərinin təhlili göstərir ki, II Şah Abbasın hakimiyyəti illərində Səfəvi və Osmanlı dövlətləri arasında formalaşmış siyasi sabitlik və qarşılıqlı anlaşma mühiti əsasən qorunub saxlanılmışdır. Hər iki tərəf 1639-cu il Qəsri-Şirin müqaviləsinin müddəalarına sadiqlik nümayiş etdirmiş, dövlətlərarası münasibətlərin tənzimlənməsində diplomatik vasitələrə üstünlük vermişdir. Bu dövrdə elçilərin qarşılıqlı göndərilməsi, siyasi yazışmaların davam etdirilməsi və yaranan problemlərin danışıqlar yolu ilə həllinə çalışılması ikitərəfli əlaqələrin mühüm xüsusiyyətlərindən biri olmuşdur. Araşdırılan mənbə materialları göstərir ki, sözügedən dövrdə Səfəvi-Osmanlı münasibətlərində dini mənsubiyyət amili açıq qarşıdurma mənbəyinə çevrilməmiş, dövlətlərarası əlaqələr əsasən siyasi və strateji maraqlar çərçivəsində inkişaf etmişdir. Hətta sərhəd bölgələrində meydana çıxan bəzi lokal xarakterli insidentlər belə ümumi sülh mühitini ciddi şəkildə sarsıda bilməmişdir. Urmiya istiqamətində kürd tayfalarının fəaliyyəti nəticəsində yaranan gərginlik, Bəsrə hadisələri və Şahnavaz xanın Başıaçıq bölgəsində həyata keçirdiyi təşəbbüslər mərkəzi hakimiyyətlərin müdaxiləsi nəticəsində qısa müddətdə nəzarət altına alınmış və genişmiqyaslı münaqişəyə çevrilməsinin qarşısı alınmışdır.

"Abbasnamə"nin verdiyi məlumatlar II Şah Abbas dövründə Səfəvi sarayının Osmanlı dövləti ilə münasibətlərdə ehtiyatlı və praqmatik siyasət yürüdərək mövcud status-kvonun qorunmasına üstünlük verdiyini aydın şəkildə nümayiş etdirir. Bu siyasət nəticəsində tərəflər arasında uzunmüddətli sülhün davam etdirilməsi mümkün olmuş, iqtisadi və ticarət əlaqələrinin inkişafı üçün əlverişli şərait formalaşmışdır. Bununla yanaşı, dövrə aid digər narrativ mənbələrdə Səfəvi-Osmanlı münasibətlərinin müxtəlif aspektlərinə dair məlumatların məhdud olması həmin illərdə aparılan diplomatik danışıqların məzmununun və siyasi qərarların qəbul edilmə mexanizmlərinin tam şəkildə bərpa edilməsini çətinləşdirir. Bu baxımdan "Abbasnamə" yalnız II Şah Abbas dövrünün siyasi tarixinin deyil, eyni zamanda XVII əsrin ikinci yarısında Səfəvi-Osmanlı münasibətlərinin öyrənilməsi üçün mühüm və əvəzsiz qaynaqlardan biri kimi xüsusi əhəmiyyət daşıyır.

*Şah II Abbasın diplomatik strategiyası.* Şah II Abbasın hakimiyyəti dövründə Səfəvi dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən biri Osmanlı imperiyası ilə sülh və sabit münasibətlərin qorunması olmuşdur. XVII əsrin ortalarında Yaxın Şərqdə mövcud olan siyasi vəziyyət, uzunmüddətli müharibələrin doğurduğu iqtisadi çətinliklər və regional qüvvələr balansı Səfəvi hakimiyyətini daha praqmatik siyasət yürütməyə sövq etmişdi. Bu şəraitdə Şah II Abbas hərbi qarşıdurmadan daha çox diplomatik vasitələrə üstünlük vermişdir (Ağayev, 2004; Azərbaycan tarixi, 2014; Azərbaycan tarixi,

1996). Hökmdarın siyasətində 1639-cu il Qəsri-Şirin müqaviləsinə sadiqlik mühüm yer tuturdu. Osmanlı dövlətinə tabe olan ərazilərdə baş verən hadisələrə münasibətdə Şah II Abbasın ehtiyatlı mövqeyi bunu aydın şəkildə göstərir. Bəsrə hadisələri zamanı Hüseyn paşanın dəfələrlə Səfəvi dövlətindən yardım istəməsinə baxmayaraq, şah bu müraciətlərə müsbət cavab verməmiş, iki dövlət arasında mövcud olan sülhün pozulmasına yol verməmişdi. Eyni yanaşma Başıaçıq hadisələrində də müşahidə olunur. Şahnavaz xanın Osmanlı nəzarətində olan ərazilərə müdaxiləsindən sonra II Şah Abbas dərhal vəziyyətə müdaxilə edərək həmin ərazilərdən qoşunların geri çəkilməsi barədə göstəriş vermişdi. Bu addım onun dövlətlərarası müqavilələrin şərtlərinə riayət olunmasına xüsusi önəm verdiyini göstərir.

Şah II Abbasın diplomatik strategiyasında iqtisadi amillər də mühüm yer tuturdu. Azərbaycan və İraq üzərindən keçən beynəlxalq ticarət yollarının təhlükəsizliyinin təmin edilməsi həm Səfəvi, həm də Osmanlı dövlətinin maraqlarına uyğun idi. Yeni müharibənin başlanması ticarət dövriyyəsinə və dövlət gəlirlərinə ciddi zərər vura bilərdi. Buna görə də Səfəvi sarayı sərhəd bölgələrində sabitliyin qorunmasına və tacirlərin təhlükəsiz fəaliyyətinə xüsusi diqqət yetirirdi. Şah II Abbas diplomatik münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət verirdi. Qarşılıqlı elçiliklərin göndərilməsi, xarici nümayəndələrin yüksək səviyyədə qəbul olunması, diplomatik yazışmaların davam etdirilməsi və mübahisəli məsələlərin danışıqlar yolu ilə həllinə üstünlük verilməsi onun xarici siyasətinin əsas xüsusiyyətlərindən idi.

## Müzakirə və Nəticə

Tədqiqatın nəticələri göstərir ki, Şah II Abbas dövründə Səfəvi–Osmanlı münasibətlərinin əsas istiqaməti hərbi qarşıdurmadan daha çox diplomatik əməkdaşlıq və siyasi sabitliyin qorunmasına yönəlmişdir. XVII əsrin ortalarında hər iki imperiyanın daxili və xarici siyasi prioritetləri uzunmüddətli müharibələrin yenidən başlanmasını məqsədəuyğun hesab etmirdi. Bu baxımdan Qəsri-Şirin müqaviləsindən sonra formalaşmış siyasi balansın qorunması həm Səfəvi, həm də Osmanlı hakim dairələrinin ortaq maraqlarına cavab verirdi.

Məhəmməd Tahir Vəhidin "Abbasnamə" əsərində əks olunan məlumatlar göstərir ki, Şah II Abbas diplomatik münasibətlərdə praqmatik yanaşmaya üstünlük vermişdir. Bəsrə hadisələri və Başıaçıq məsələsində onun tutduğu mövqe Səfəvi dövlətinin qısamüddətli siyasi üstünlüklər əldə etmək imkanlarına baxmayaraq, mövcud beynəlxalq müqavilələrin şərtlərinə sadiq qalmağa üstünlük verdiyini nümayiş etdirir. Bu siyasət hökmdarın regional ekspansiyadan daha çox dövlət təhlükəsizliyini və siyasi sabitliyi prioritet hesab etdiyini göstərir.

Araşdırma həm də göstərir ki, diplomatik münasibətlərin inkişafında iqtisadi amillər mühüm rol oynamışdır. Azərbaycan və İraq istiqamətindən keçən beynəlxalq ticarət yollarının təhlükəsizliyinin təmin olunması hər iki dövlət üçün strateji əhəmiyyət daşıyırdı. Buna görə də sərhəd bölgələrində baş verən lokal xarakterli münaqişələrə baxmayaraq, tərəflər onların genişmiqyaslı müharibəyə çevrilməsinin qarşısını almağa çalışırdılar. Bu vəziyyət erkən yeni dövr beynəlxalq münasibətlərində iqtisadi maraqların siyasi qərarların formalaşmasına ciddi təsir göstərdiyini təsdiqləyir.

Tarixşünaslıq baxımından əldə olunan nəticələr Qərb tədqiqatçılarının Səfəvi–Osmanlı münasibətlərini əsasən hərbi qarşıdurmalar prizmasından qiymətləndirən yanaşmalarını müəyyən dərəcədə tamamlayır. Mənbələrin təhlili göstərir ki, XVII əsrin ortalarında iki dövlət arasında münasibətlərin xarakterini yalnız müharibələr deyil, eyni zamanda, intensiv diplomatik danışıqlar, qarşılıqlı elçilik missiyaları, siyasi kompromislər və regional sabitliyin qorunmasına yönəlmiş fəaliyyət müəyyənləşdirirdi.

Beləliklə, Şah II Abbas dövründə Səfəvi–Osmanlı münasibətləri qarşıdurma modelindən daha çox siyasi praqmatizm, diplomatik əməkdaşlıq və beynəlxalq müqavilələrə hörmət prinsipləri əsasında inkişaf etmişdir. Bu xüsusiyyətlər XVII əsrin ortalarında Yaxın Şərqdə formalaşmış dövlətlərarası münasibətlər sisteminin daha dolğun şəkildə başa düşülməsinə imkan verir.

Araşdırma göstərir ki, Şah II Abbas dövründə Səfəvi–Osmanlı münasibətlərinin əsas xarakterik xüsusiyyəti hərbi qarşıdurmadan daha çox diplomatik əməkdaşlıq və siyasi sabitliyin qorunmasına yönəlməsi olmuşdur. Qəsri-Şirin müqaviləsindən sonra formalaşmış sülh mühiti qarşılıqlı elçiliklərin göndərilməsi, diplomatik yazışmalar və sərhəd məsələlərinin danışıqlar yolu ilə həlli vasitəsilə möhkəmləndirilmişdir.

Bununla yanaşı, sərhəd bölgələrində baş verən lokal toqquşmalar və regional münaqişələr iki dövlət arasında münasibətlərin tamamilə problemsiz olmadığını göstərir. Lakin həm Səfəvi, həm də Osmanlı hakim dairələri bu hadisələrin genişmiqyaslı müharibəyə çevrilməsinin qarşısını almağa çalışmışlar. Nəticə etibarilə, Şah II Abbas dövrü XVII əsrdə Osmanlı–Səfəvi münasibətlərində nisbi sabitlik, diplomatik fəallıq və qarşılıqlı siyasi praqmatizmlə səciyyələnən mühüm mərhələ kimi qiymətləndirilə bilər.

## Ədəbiyyat

1. Ağayev, R.Ə. (2004). *Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin qarşılıqlı münasibətləri (XV-XVI əsrlər).* Kür Nəşriyyatı.
2. *Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinə qədər).* (2014). Bakı Universiteti Nəşriyyatı.
3. *Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər.* (1996). Azərbaycan Nəşriyyatı.
4. Bakıxanov, A. (2001). *Gülüstani-İrəm.* Mömінin Nəşriyyatı.
5. Bayramlı, Z., Şabiyev, B. (2014). XVII yüzilliyin 20–40-cı illərində Səfəvi–Osmanlı münasibətləri (İrəvan və Bağdad uğrunda mübarizə). *Tarix və onun problemləri, 1*, 18–35.
6. Bayramlı, Z. (2014). Qəsri-Şirin müqaviləsi. *Tarix və onun problemləri, 1*, 36–41.
7. Bayramlı, Z., Əzizli, B. (2000). *Azərbaycan Evliya Çələbinin 1654-cü il "Səyahətnamə"sində.* Azərbaycan Nəşriyyatı.
8. Bayramlı, Z.H. (2006). *Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi.* ADPU Nəşriyyatı.
9. Bahadir xan, Ə. (2002). *Şəcərei-Tərakimə (türkmənlərin soy kitabı).* Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı.
10. Əfəndiyev, O. (2007). *Azərbaycan Səfəvilər dövləti.* Azərnəşr Nəşriyyatı.
11. Kütükoğlu, B. (1993). *Osmanlı–İran Siyasi Münasebetleri (1578–1612).* İstanbul Fetih Cemiyeti Yayınları.
12. Mahmudov, Y. (2006). *Azərbaycan Diplomatiyası.* Təhsil Nəşriyyatı.
13. Matthee, R. (2012). *Persia in Crisis: Safavid Decline and the Fall of Isfahan.* I.B. Tauris.
14. Mitchell, C.P. (2009). *The Practice of Politics in Safavid Iran: Power, Religion and Rhetoric.* I.B. Tauris.
15. Newman, A.J. (2006). *Safavid Iran: Rebirth of a Persian Empire*. I.B. Tauris.
16. Savory, R. (1980). *Iran under the Safavids.* Cambridge University Press.
17. Sümer, F. (1992). *Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü.* Türk Tarih Kurumu Yayınları.
18. Uzunçarşılı, İ.H. (1988). *Osmanlı Tarihi.* Cilt 3. Türk TarihKurumu basımevi.